# Kitab bazarında yeni inqilab: "Azərkitab"da hər şey var!

## MƏQSƏDİMİZ KİTABA DÖNMƏKDİR

*Belə bir deyim var: "Ağıllı olmaq üçün 10 kitab oxumaq kifayətdir, lakin onları başa düşmək üçün minlərlə kitab oxumaq lazımdır". Doğrudan da oxuduğumuz kitabların sayı elə həddə çatmalıdır ki, həyatımızda önəmini bizə dərk etdirsin. Kitab bilik mənbəyidir. Məhz kitablara etibar etmək ən doğrusudur. Bir də sizə oxumaq üçün kitab verənlərə. Təbii ki, heç bir insan hədiyyə kitabdan imtina etməz və ya insanların əksəriyyəti ona oxumaq üçün verilən kitaba "Hə" deyir. İş kitaba pul verib almağa gələndə artıq seyrəklik başlayır.*

*Düşünmək olar ki, Azərbaycanda kitaba olan maraq səviyyəsinin aşağı olması amillərindən biri də budur. Məhz "Azərkitab" oxucu kütləsinin maraq və istəklərini nəzərə alaraq bir ilkə imza atdı. Azərbaycanın ən böyük kitab mağazasının açılışına siz də hazırsınızmı?*

*Beləliklə Adalet.az nəinki paytaxt, ölkə üzrə ən böyük kitab mağazası "Azərkitab" Kitab Təbliğatı Mərkəzini təqdim edir.*

*Açılışı ümummilli lider Heydər Əliyevin doğum gününə həsr olunan yeni mərkəzdə məhz sizin kitab oxumanız üçün hər cür şərait yaradılıb. 4 mərtəbəli binadan ibarət olacaq bu nəhəng məkanın 2 və 3-cü mərtəbələrində sırf kitab satışı həyata keçiriləcək. Birinci mərtəbədə isə "book-kafe" fəaliyyət göstərəcək, o cümlədən burada ziyalılar klubu olacaq ki, bu da ziyalıların gənclərələ görüşü üçün nəzərdə tutulub. 4-cü mərtəbədə isə kitab təqdimatları üçün ayrılıb. Həmçinin Mərkəzdə uşaqların da maraqları nəzərə alınıb. Burada "Nağıl otaqları" yaradılacaq ki, bu, uşaqlar üçün məktəbəqədər tədris proseslərinin həyata keçirilməsi məqsədini daşıyır.*

*Mərkəzin təsisçisi və rəhbəri Sabir Həsənov saytımıza açıqlamasında Mərkəz haqqında və gələcək planlar haqqında məlumat verib.*

**- Sabir müəllim, yeni açılmış Kitab Təbliğatı Mərkəzində kitabşünaslıqla bağlı hər şey var. Yeni Mərkəzi Universal Mərkəz adlandırmaq olarmı?**

-Əlbəttə. Bildiyiniz kimi, yeni yaradılmış Kitab Təbliğatı Mərkəzində kitab satışı, ofis ləvazimatlarının satışının həyata keçirilməsi ilə bərabər rəsm qaleriyası da fəaliyytə göstərəcək. Bizim məramımız nəninki ədəbiyyata, həm də mədəniyyətə xidmət etməkdir. Düşünürəm ki, biz kitab bazarında və ədəbiyyat sahəsində yeni inqilab edəcəyik.




**-Niyə məhz kitab mağazası?**

-Bilirsiniz, bu sualı mənə çox insan verir. Qeyd edim ki, mən hüquqi şəxs və layihə rəhbəri kimi kitab biznesinə əl atdım. Çünki kitablara məndə maraq hələ gənclik illərimdən olub. 17 yaşımda kitab satışı ilə məşğul olurdum. 1981-ci ildən bu sahədə çalışıram. Hələ sovet dövründə "Azərkitab" adında dövlət qurumu var idi. Orada komsomol katibi vəzifəsində çalışmışam, kitab mağazasının müdiri olmuşam. Son 10 il idi ki, ümumiyyətlə kitablarda uzaqlaşmışdım. Nəhayət məqsədimizi həyata keçirmək üçün vədə yetişdi. İndi tale elə gətirdi ki, mən arzularımı yerinə yetirməyə başlamışam. Digər məsələ isə ondan ibarətdir ki, Azərbaycanda kitab vərəqləyənlərin sayı çox azdır. Kitab oxucu kütləsinin əsas qismi Təhsil Nazirliyinin tabeçiliyində olan müəssisələrdə toplanıb. Yəni, tələbə və şagirdlərdir. Elektron kitablar isə kifayət qədər təminedici rol oynamır. Düşünürəm ki, kitaba tələbat artırılmalıdır, oxucuların maraqlarını artırmalıyıq. Buna görə hesab edirəm ki, bizim bu işimiz kitab bazarında dönüş edəcək. Bu işlərlə mərkəzin direktoru Misirxan Nəsənov məşğul olacaq.

**- Hansı nəşriyyatlarla işləyirsiniz?**

- Biz bütün kitab nəşriyyatları ilə işləyirik. Özünüz də gördünüz ki, istənilən nəşrdən kitablar var.

**- Yeni tərcümələr olacaqmı?**

- Təbii ki, gələcəkdə bu da nəzərdə tutulub. Dünya ədəbiyyatından müəyyən qədər tərcümələr olub. Biz bunun canlı şahidiyik, ancaq hal-hazırda tərcüməsi labüd olan xarici ədəbiyyatlar da qalmaqdadır. Bir məsələ də var ki, Azərbaycanda yaxşı tərcüməçilər çox azdır.

**- Xarici dildə kitabların satışı nəzərdə tutulubmu?**

- Təbii ki. Hətta Yeni Mərkəzimizdə xarici ədəbiyyat bölməsinin yaradılması da nəzərimizdə var.

**- Yaxın gələcəkdə hansı planlarınız var?**

- Ümumiyyətlə planlar çoxdur, lakin başda bizim təbliğat məsələlərimiz dayanır. Həmin planlarımızı, layihələrimizi də ona görə qururuq. Məsələn, Təhsil Nazirliyi ilə yeni layihə barədə danışa bilərəm ki, həmin layihədə nəzərdə tutulub ki, hər gün bir orta məktəbdən şagirdlərin Mərkəzimizə ekskursiyası təşkil olunsun. Bunun özü böyük bir təbliğatdır. Təsəvvür edin ki, Bakıda 320-dən çox orta ümumtəhsil məktəbi var. Hər gün şagird toplumu bura gəlsə bu onminlərlə, hətta yüzminlərlə oxucu kütləsi deməkdir. Əlavə edim ki, bizim regionlar üzrə də aksiyalarımız olacaq. Hal-hazırda müvafiq qurumlarla danışıqlar gedir.

Beləliklə kitab Təbliğatı mərkəzi Azərbaycan bazarında yeni inqilaba imza atacaq. Mərkəzin rəhbəri Sabir Həsənov onu da qeyd edib ki, 9 may tarixində açılışı nəzərdə tutulan Mərkəzdə oxucularımız üçün maksimum şərait təmin ediləcək ki, onlar kitab əldə edib oxusunlar. Belə ki, kitabların kirayə verilməsi, Mərkəzin daxilində oxu zalının fəaliyyət göstərməsi, o cümlədən kitabların dəyişdirilməsi kimi xidmətlər də mövcud olacaq.

"Azərkitab" Kitab Təbliğatı Mərkəzinin açılışında bir sıra ziyalılar və mədəniyyət xadimlərinin iştirakı nəzərdə tutulur. O cümlədən Mədəniyyət və Turizm Naziri Əbulfəz Qarayev və Təhsil naziri Mikayıl Cabbarovun iştirakı da gözlənilir.

Sonda əlavə edək ki, Azərkitabın rəsmi internet səhifəsi Azerkitab.az saytı da yaxınlara fəaliyyət başlayacaq.

**Rüfət Soltan**

ədalət.-2017.-11 aprel.-S.3.